si, qışqırıqlar, göz yaşları ilə qarışan azadlıq çağırışları təkcə Bakıda deyil, bütün Azərbaycanda eşidildi. Bu vəhşilik nəticəsində yüzlərlə günahsız insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Ancaq faciənin ağır tərəfi yalnız bu deyildi. Belə ki, dünya ictimaiyyəti bu ədalətsizliyə səssiz qalmışdı. Belə bir şəraitdə Azərbaycan xalqının haqq səsini dünyaya çatdıran, bu qanlı faciəyə ilk olaraq açıq və cəsarətli etirazını bildirən məhz ümummilli lider Heydər Əliyev oldu. Hadisənin ertəsi günü Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək tarixi bəyanatla çıxış etdi. Ulu öndərin çıxışı təkcə Azərbaycan xalqının deyil, həm də dünyada ədalətin, insan hüquqlarının müdafiəsi naminə atılmış addım idi.

Heydər Əliyev çıxışında sovet rəhbərliyinin cinayətkar mahiyranmazdı. Bunlar üçün, ilk növbədə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində, Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır?".

Bu çıxış o dövrdə Azərbaycan xalqı üçün həm mənəvi dayaq, həm də siyasi dirəniş oldu. Çünki Heydər Əliyev bu çıxışı ilə xalqımızın milli iradəsi, haqqı və azadlıq arzusu beynəlxalq arenada açıq şəkildə müdafiə etdi. Bu bəyanat sovet rejiminin mərkəzində, Moskvada səsləndiyi üçün daha böyük əhəmiyyət daşıyırdı. Çünki o dövrdə belə bir mövqe nümayiş etdirmək həm siyasi, həm də şəxsi cəsarət tələb edirdi. Ümummilli lider bir daha sübut etdi ki, o, xalqının ən çətin günlərində onunla bərabərdir və millətinin mənafeyi onun üçün hər şeydən üstündür. Dahi liderin bu addımı Qanlı Yanvar hadisələrinin unudulmaması və ədalət naminə mübarizənin davam etdirilməsi üçün zəmin yaratdı. Bu hadisədən illər

Xalqının harayına çatan Ümummilli Liderin cəsarət nümayişi

20 Yanvar 1990-cı il... Bu tarix azadlıq eşqi ilə alışıb yanan bir xalqın sinəsinə saplanan qanlı xəncəri simvolizə edir. O gecə silahsız xalqın güllələrə qarşı vüqarla durduğu amansız qətliam yaşandı. Sovet ordusu Bakı küçələrinə ağır texnika ilə daxil olanda şəhərin qaranlıq gecəsini azadlıq uğrunda mübarizə aparan insanların ümidi işıqlandırdı.

Azadlıq eşqilə meydanlara çıxan bu insanlar güllələrdən, tankların altında əzilməkdən qorxmurdular. Çünki onlar öz doğma torpaqlarında milli dəyərlərini qorumaq üçün savaşırdılar. Həmin gün güllə səyətini kəskin şəkildə ifşa etdi. Qanlı Yanvar faciəsinin təşkilatçılarını və günahkarlarını adbaad açıqlayaraq onların törətdikləri qanlı təcavüzü kəskin pislədi. Həmçinin bu vəhşiliyin səbəblərini və mahiyyətini təhlil edərək xalqımızın müstəqillik arzularını boğmaq məqsədi güddüyünü dünyaya bəyan etdi. Heydər Əliyev bu faciəni Azərbaycan xalqının milli suverenliyinə, azadlıq mübarizəsinə qarşı yönəlmiş bir cinayət kimi dəyərləndirdi və haqq səsini qorxmadan ucaltdı: "Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaketçsə də, Heydər Əliyevin 21 yanvar çıxışı Azərbaycanın müstəqillik tarixində silinməz iz qoydu. Bu çıxış milli liderin xalqına sevgi və sədaqətini, onun azadlıq mübarizəsində nə qədər qətiyyətli olduğunu göstərir.

20 Yanvar milli iradəmizin, qururumuzun təcəssümüdür. Göz yaşları ilə qarışan bu qanlı səhifəni unutmaq mümkün deyil. Çünki həmin günün ağrısı hər bir azərbaycanlının yaddaşında dərin iz buraxıb və bizə bu torpağın dəyərinin nə qədər böyük olduğunu xatırladır. 20 Yanvar şəhidlərini hörmət və sevgi ilə anırıq. Onların mübarizə yolunun işığında milli kimliyimizi qorumağa çalışırıq. Çünki bu torpaq onların qanı ilə müqəddəsləşib. Və biz bu müqəddəsliyə layiq olmağa borcluyuq.

Jalə QASIMZADƏ,
"Respublika".